Təsdiq edirəm
ADMİU-nun rektoru
__________Professor Ceyran Mahmudova
"_12_" "_sentyabr_________" 2025-ci il

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ

ADMİU

# MAGİSTRATURA SƏVİYYƏSİNİN İXTİSAS ÜZRƏ

# T Ə H S İ L  P R O Q R A M I

**7008004 – Turizm və otelçilik ixtisasının**
**Turizm və sosial-mədəni servis ixtisaslaşması**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin
3-29/3-2-548F/2025/1 nömrəli 08.09.2025-ci il tarixli əmrinə əsasən
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının
12.09.2025-ci il tarixli iclasında (protokol №01) təsdiq edilmişdir.

BAKI – 2025

## 1. Ümumi müddəalar

1.1. Magistratura səviyyəsinin 7008004 – Turizm və otelçilik ixtisası üzrə təhsil proqramı (bundan sonra – təhsil proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcə də "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların Təsnifatı"na, qabaqcıl beynəlxalq təcrübə və əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmışdır.

1.2. Təhsil proqramının məqsədləri aşağıdakılardır:

- ixtisas üzrə məzunun səriştələrini, ixtisasın çərçivəsini, fənlər üzrə tədris və təlim metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktur və kadr potensialına olan tələbləri, təhsilalanın təcrübə keçmə, işə düzəlmə və təhsilini davam etdirmə imkanlarını müəyyənləşdirmək;
- təhsilalanları və işəgötürənləri məzunların əldə etdiyi bilik, bacarıq və təlim nəticələri ilə tanış etmək;
- təhsil proqramı üzrə kadr hazırlığının bu proqrama uyğunluğunun qiymətləndirilməsi zamanı prosesə cəlb olunan tərəfdaşları məlumatlandırmaq.

1.3. Təhsil proqramı, tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə magistr hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

1.4. Təhsilalanın 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 akademik saatdır (xüsusi təyinatlı ali təhsil müəssisələri istisna olmaqla). Bu zaman auditoriya saatlarının həcmi 12-16 akademik saat təşkil edir. Peşəkar məqsədlər üçün dərindən öyrənilən ixtisaslaşmalar üzrə həftəlik dərs yükünün həcmi dəyişdirilə bilər.

1.5. Ali təhsil müəssisəsi tərəfindən ixtisasın həmin müəssisədə kadr hazırlığı aparılan hər bir ixtisaslaşması üzrə ayrıca təhsil proqramı hazırlanmalıdır. Hər bir ixtisaslaşma üzrə təhsil proqramı müvafiq ixtisasın təhsil proqramındakı bölmələrlə yanaşı, həmin ixtisaslaşma üzrə tədris və təlim metodları, təlim nəticələrinin qiymətləndirilməsi üsulları, təcrübələrin təşkili və qiymətləndirilməsi və s. bölmələri də əks etdirməlidir.

## 2. Məzunun səriştələri

2.1. Təhsil proqramının sonunda məzun aşağıdakı ümumi səriştələrə yiyələnməlidir:

- peşəkar fəaliyyəti çərçivəsində gözlənilməz və mürəkkəb məsələləri müstəqil şəkildə həll edə bilmək;
- müvafiq fəaliyyət və metodları təklif etmək, planlaşdırmaq, onların cari və perspektiv nəticələrini təhlil etmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin səbəblərini araşdırmaq, konkret vaxt çərçivəsində və məhdud informasiya şəraitində onları həll edə bilmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı müvafiq texnologiya və metodları seçmək və onlardan istifadə edə bilmək, həmçinin gözlənilən nəticələri müəyyənləşdirmək, dəyərləndirmək və qiymətləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemlərin həlli zamanı öz fəaliyyətini tənqidi şəkildə dəyərləndirmək;
- fəaliyyət və ya təhsil sahəsi ilə bağlı problemləri Azərbaycan dilində və bir xarici dildə şifahi və yazılı olaraq təqdim etmək, əsaslandırmaq, həmçinin mütəxəssis və qeyri-mütəxəssislərlə birgə müvafiq müzakirələrdə iştirak etmək;
- müxtəlif üsullarla öz bilik və səriştələrini başqalarına ötürə bilmək;
- istənilən şəraitdə etik davranış qaydalarına uyğun şəkildə fəaliyyət göstərmək, şəxsi davranışlarının etik aspekt və imkanlarını, məhdudiyyətlərini və sosial rolunu anlamaq;

o davamlı öyrənmə və peşəkar inkişafla bağlı özünün və digərlərinin ehtiyaclarını qiymətləndirə bilmək, həmçinin müstəqil öyrənmə üçün zəruri olan səmərəli metodlardan istifadə edə bilmək;

o turizm və otelçilik sahəsində Azərbaycanın strateji inkişaf məqsədlərini və prioritetlərini təhlil etmək və qiymətləndirmək;

o müasir standartlar sistemini turizm sənayesinə tətbiq etmək, keyfiyyət təminatı mexanizmlərini nəzərə alaraq xidmət keyfiyyətini artırmaq məqsədilə innovativ yanaşmalar və qabaqcıl təcrübələri praktikada tətbiq etmək.

2.2. Təhsil proqramının sonunda **7008004 – Turizm və otelçilik ixtisasının ixtisaslaşmaları** üzrə məzun aşağıdakı peşə səriştələrinə yiyələnməlidir:

**Turizm və sosial-mədəni servis ixtisaslaşması üzrə:**

o turizm regionlarının planlaşdırılması zamanı klaster yanaşmanın prinsiplərini tətbiq etmək;

o regionun mədəni və tarixi irsini öyrənərək, bu potensiala əsaslanan xidmət proqramlarını müasir və yaradıcı yanaşmalarla tərtib etmək;

o turizm məhsullarının yaradılması və inkişafı ilə bağlı yerli və beynəlxalq standartları, qayda və tələbləri tətbiq etmək;

o sosial media platformaları və rəqəmsal marketinq strategiyaları vasitəsilə hədəf auditoriyalarla effektiv əlaqə quraraq turist axınını stimullaşdırmaq;

o cəmiyyətdəki müxtəliflik və fərqlilikləri xidmət sahəsində nəzərə almaq;

o xidmət sektorunda fəaliyyət göstərən təşkilatların iqtisadi səmərəliliyini təmin etmək üçün rasional və iqtisadi cəhətdən əsaslandırılmış qərarlar qəbul etmək.

## 3. Təhsil proqramının strukturu

3.1. Təhsil proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ali elmi-ixtisas dərəcəsi:

| **İxtisaslaşmaların adları** | **Verilən dərəcə** | **Əyani forma üzrə təhsil müddəti** | **Kreditlərin sayı** |
|---|---|---|---|
| Turizm və sosial-mədəni servis | Magistr ali elmi-ixtisas | 1.5 il | 90 |

3.2. Təhsil proqramı ixtisasdan (ixtisaslaşmadan) asılı olaraq 90 (1.5 il) AKTS kreditindən ibarətdir. Hər semestrdə 5 fəndən çox olmamaq şərti ilə 30 kredit nəzərdə tutulmuşdur. Kreditlər aşağıdakı şəkildə bölüşdürülür:

| Sıra sayı | Fənnin adı | AKTS krediti |
|---|---|---|
| 1. | **Akademik yazı və etika**<br>*Bu fənnin məqsədi akademik yazı, danışıq və dürüstlüyün əsaslarını öyrətmək, magistrantların elmi məqalə, dissertasiya, esse və digər akademik sənədləri peşəkar şəkildə yazmaq, konfrans, simpozium, seminar və elmi diskussiyalarda peşəkar şəkildə danışmaq, nəşr etikası bacarıqlarını inkişaf etdirməkdir. Fənn təhsilalanlara akademik üslub, mənbələrdən düzgün istifadə, istinad qaydaları və etik normalar haqqında bilik və şəriştələr verəcəkdir.* | 6 |
| 2. | **Layihələrin idarə edilməsi**<br>*Bu fənn çərçivəsində layihə üzrə komanda quruculuğu və fəaliyyətinin xüsusiyyətləri, layihədə liderlik, layihə menecerinin vəzifələri və digər məsələləri ətraflı izah olunur, eləcə də layihənin mahiyyəti, vaxt cədvəlləri, kommunikasiyalar, təchizat, maraqlı tərəflərlə peşəkar münasibətlər və digər mövzularda biliklər aşılanır. Bununla yanaşı, sözügedən fənn layihələrin çevik idarə edilməsi ilə bağlıdır. Burada dəyişikliklər fonunda layihələrin idarə edilməsi, risklərin düzgün qiymətləndirilməsi, "Məhsul sahibi" və "Scrum Master"in vəzifələri və s. mövzular əhatə olunmalıdır.* | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən məcburi fənlər** | 54 |
| 3 | **Ali məktəb pedaqogikası və psixologiya**<br>Bu fənn ali təhsil müəssisələrində tədris prosesinin nəzəri-metodoloji əsaslarını öyrədir. Fənn pedaqoji fəaliyyətin prinsipləri, təlim metodları və tədris texnologiyalarının tətbiqi imkanlarını nəzərdən keçirir. Təhsilalanlara müasir pedaqoji yanaşmalar əsasında dərs planlaşdırmaq, auditoriya ilə işləmək və qiymətləndirmə aparmaq bacarıqları aşılanır. Bu biliklər gələcəkdə onların elmi-pedaqoji fəaliyyətini səmərəli təşkil etməsinə şərait yaradır. | 6 |
| 4 | **Turizm sənayesinin tarixi və müasir problemləri**<br>Bu fənn turizmin qədim sivilizasiyalardan başlayaraq bu günədək keçdiyi inkişaf mərhələlərini əhatə edir. Qədim dövrlərdə səfərlərin dini, mədəni və iqtisadi səbəbləri, orta əsrlərdə karvan yolları və ticarət mərkəzləri, Yeni dövrdə sənaye inqilabının turizmə təsiri, müasir dövrdə isə qlobal turizm bazarının formalaşması fənnin əsas istiqamətlərini təşkil edir. Eyni zamanda, turizmin müasir problemləri – ekoloji təzyiqlər, kütləvi turizmin yaratdığı sosial və mədəni risklər, pandemiyaların və siyasi böhranların təsirləri, texnologiyaların sürətli inkişafı ilə bağlı çağırışlar geniş şəkildə təhlil olunur. Fənnin məqsədi tələbələrə turizmin tarixi köklərini anlamaqla yanaşı, müasir problemlərin təməl səbəblərini dərk etmək və onların həlli üçün yaradıcı yanaşmalar formalaşdırmaqdır. | 6 |

| | | |
|---|---|---|
| 5 | **Dayanıqlı və inklüziv turizm**<br>Fənn dayanıqlı inkişaf prinsiplərinin turizm sahəsinə tətbiqini, ekoloji tarazlığın qorunmasını, yerli icmaların sosial rifahının gücləndirilməsini və turizmin inklüzivlik əsasında inkişafını öyrədir. Burada BMT-nin Davamlı İnkişaf Məqsədləri (SDG), turizmin sosial məsuliyyət çərçivələri, əlilliyi olan şəxslər üçün əlçatan turizm xidmətlərinin təşkili, gender bərabərliyi və müxtəlif sosial qrupların turizmdə iştirakı kimi mövzular əhatə olunur. Məqsəd tələbələrdə ekoloji və sosial baxımdan cavabdeh, eyni zamanda inklüziv turizm layihələri hazırlamaq bacarığını formalaşdırmaqdır. | 6 |
| 6 | **Mədəni irs və etnoqrafik turizm**<br>Fənn mədəni irsin qorunması, idarə olunması və turizm məqsədləri ilə istifadəsi məsələlərini araşdırır. Maddi və qeyri-maddi mədəni irs, tarixi abidələr, muzeylər, folklor, ənənəvi sənətlər, milli mətbəx və digər etnoqrafik elementlərin turizm məhsuluna çevrilməsi istiqamətində nəzəri və praktiki biliklər verilir. UNESCO-nun mədəni irslə bağlı konvensiyaları, irsin qorunmasında turizmin rolu və mədəni irs əsaslı turizm marşrutlarının hazırlanması da fənnin əsas mövzuları sırasındadır. Məqsəd tələbələrdə milli və bəşəri irsə hörmət, onu müasir turizm bazarında təqdim etmə bacarığı formalaşdırmaqdır. | 6 |
| 7 | **Turizm marketinqi və brendinq**<br>Fənn turizm məhsul və xidmətlərinin bazara çıxarılması, rəqabət mühitində mövqeləndirilməsi, marketinq alətlərinin (4P, 7P modeli) tətbiqi və brendinq strategiyalarını öyrədir. Milli və regional turizm brendlərinin yaradılması, imic və reputasiya menecmenti, sosial media marketinqi və rəqəmsal kanallardan istifadə məsələləri də fənnin əsas mövzularındandır. Məqsəd tələbələrdə turizm məhsullarını bazarda effektiv şəkildə təqdim etmək və brend yaratmaq bacarığını formalaşdırmaqdır. | 6 |
| 8 | **Sosial-mədəni fəaliyyətin təşkili və menecmenti**<br>Fənn sosial-mədəni fəaliyyətlərin (tədbirlər, festivallar, sərgilər, tamaşalar, sosial layihələr) planlaşdırılması və idarə olunması mexanizmlərini öyrədir. Menecment nəzəriyyələri əsasında fəaliyyətlərin təşkilati strukturu, resurs bölgüsü, insan resurslarının idarə olunması, marketinq strategiyaları və effektivlik göstəriciləri təhlil olunur. Məqsəd tələbələrdə sosial-mədəni fəaliyyətlərin peşəkar səviyyədə təşkil olunması və idarə edilməsinə dair bacarıqlar formalaşdırmaqdır. | 6 |
| 9 | **Rəqəmsal texnologiyalar və turizm innovasiyaları**<br>Fənn rəqəmsal transformasiya, turizm biznesində informasiya texnologiyalarının rolu, süni intellekt, böyük verilənlərin (Big Data) analizi, virtual və artırılmış reallıq (VR/AR), onlayn rezervasiya sistemləri və elektron marketinq kimi mövzuları öyrədir. Məqsəd tələbələrdə rəqəmsal texnologiyaları turizmdə tətbiq edərək innovativ yanaşmalar formalaşdırmaqdır. | 6 |

| | | |
|---|---|---|
| 10 | **Turizmdə liderlik və strateji idarəetmə**<br>Fənn turizm müəssisələrində liderlik modelləri, strateji idarəetmə nəzəriyyələri, uzunmüddətli planlaşdırma, qərar qəbuletmə, risklərin idarə olunması və dəyişikliklərin menecmenti mövzularını əhatə edir. Tələbələr liderlik bacarıqları qazanır və strateji idarəetmənin praktiki alətlərindən istifadə etməyi öyrənirlər. | 6 |
| 11 | **İcma əsaslı turizm və sosial xidmətlər**<br>Fənn yerli icmaların turizm fəaliyyətinə cəlb olunması, icmaların iqtisadi və sosial rifahının artırılması, sosial xidmətlərin təşkili və sosial sahibkarlıq mövzularını əhatə edir. Əlavə olaraq, turizmin yerli mədəniyyətin qorunmasına təsiri, gender bərabərliyi, sosial ədalət və inklüzivlik məsələləri də öyrənilir. Məqsəd tələbələrdə icma əsaslı turizm layihələri hazırlamaq və sosial yönümlü xidmətləri təşkil etmək bacarığını formalaşdırmaqdır. | 6 |
| | **Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən seçmə fənlər** | 18 |
| 12 | **a) Sosial-mədəni servisin sosial və iqtisadi əsasları**<br>Fənn sosial-mədəni xidmətlərin mahiyyətini, onların cəmiyyətin sosial tələblərinin ödənilməsində və turizm sənayesinin inkişafında rolunu öyrədir. Sosial-mədəni servisin iqtisadi əsasları, bazar mexanizmləri, dövlət və özəl sektorun iştirakı, tələb və təklif balansı, xidmətlərin qiymətləndirilməsi kimi məsələlər geniş şəkildə təhlil olunur. Tələbələr sosial-mədəni xidmətlərin iqtisadi səmərəliliyini ölçməyi, onların sosial faydasını qiymətləndirməyi öyrənirlər.<br>**b) Sosial-mədəni servisin müasir tendensiyaları**<br>Bu fənn qlobal səviyyədə sosial-mədəni xidmətlərin inkişafında yeni tendensiyaları öyrənir. Müştəri tələblərinin dəyişməsi, rəqəmsal texnologiyaların tətbiqi, inklüziv xidmətlərin artan əhəmiyyəti, pandemiya sonrası turizmdə xidmətlərin yenidən təşkili və mədəniyyət sənayesində innovasiyaların rolu araşdırılır. Fənnin məqsədi tələbələrdə müasir dövrün çağırışlarına uyğun xidmətlər yaratmaq bacarığını formalaşdırmaqdır. | 6 |
| 13 | **a) Sosial-mədəni tədbirlərin təşkili və koordinasiya**<br>Bu fənn sosial-mədəni tədbirlərin (konfrans, konqres, festival, yarmarka, sərgi və s.) təşkili, idarə olunması və koordinasiya proseslərini öyrədir. Tədbirlərin planlaşdırılması, logistika, resursların bölgüsü, sponsorlarla əməkdaşlıq, təhlükəsizlik, risklərin idarə olunması və tədbir sonrası hesabatların hazırlanması mövzuları əhatə olunur. Məqsəd tələbələrdə müxtəlif tədbirlərin effektiv təşkilinə dair praktiki bilik və bacarıqlar yaratmaqdır.<br>**b) Sosial-mədəni servis sahəsində insan resurslarının idarə olunması**<br>Fənn insan resurslarının sosial-mədəni xidmət sahəsində rolu, kadr siyasəti, işçi seçimi və yerləşdirilməsi, motivasiya, performansın idarə olunması, əmək münasibətləri və komanda liderliyi mövzularını öyrədir. Məqsəd tələbələrdə sosial-mədəni servisdə effektiv HR | |

| | | |
|---|---|---|
| | idarəçiliyi bacarığını formalaşdırmaqdır. | |
| 14 | **a) Ekskursiya işinin təşkili və bələdçilik fəaliyyəti**<br>Fənn ekskursiya fəaliyyətinin nəzəri və praktiki əsaslarını, ekskursiyaların növlərini, marşrutların hazırlanması və ssenarilərin tərtibi, turist qrupları ilə iş, peşəkar bələdçiliyin etik normaları və kommunikasiya bacarıqlarını öyrədir. Məqsəd tələbələrdə ekskursiya planlaşdırmaq, həyata keçirmək və bələdçilik bacarıqları formalaşdırmaqdır.<br>**b) Turizmdə tədqiqat metodları**<br>Fənn turizm sahəsində elmi-tədqiqat işlərinin aparılma metodlarını, məlumatların toplanması və analizi, sorğu, müşahidə, müsahibə kimi metodların tətbiqi, statistik məlumatların işlənməsi, tədqiqat nəticələrinin şərhi və hesabat hazırlanması qaydalarını öyrədir. Məqsəd tələbələrdə müstəqil elmi tədqiqat aparmaq və turizm sahəsində analitik nəticələr çıxarmaq bacarığını inkişaf etdirməkdir. | 6 |
| | **Təcrübə** | |
| 15 | **Elmi-pedaqoji təcrübə** | 6 |
| **CƏMİ** | | **90** |

**4. Proqramın və hər bir fənnin təlim nəticələri**

4.1. Bu təhsil proqramı üzrə məzunlar təhsil və ya fəaliyyət sahəsi ilə bağlı əsas anlayışlar, nəzəri prinsip və tədqiqat metodları haqqında sistemli, ümumi təsəvvürə və geniş biliyə malik olmalı, konkret (ixtisaslaşmış) təhsil və ya fəaliyyət sahəsində dərin biliklərə yiyələnməlidirlər.

4.2. İxtisaslaşmanın təhsil proqramının hər bir fənn üzrə təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin/akademik heyətin səlahiyyətindədir.

4.3. İxtisaslaşma üzrə proqramın təlim nəticələri Əlavə 1-də müəyyən olunur. Fənlər üzrə təlim nəticələri isə hər bir ali təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Təlim nəticələri matrisində (Əlavə 2) fənlərlə təhsil proqramının təlim nəticələri arasındakı əlaqə əks olunmalıdır.

4.4. Təhsil proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən elmi və praktiki məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

## 5. İnfrastruktur və kadr potensialı

5.1. Ali təhsil müəssisəsi tədris, təlim və qiymətləndirmə fəaliyyətlərinin yüksək səviyyədə təşkil olunması üçün informasiya-kommunikasiya texnologiyaları ilə təchiz edilmiş müasir auditoriyalara malik olmalı, tələbələrə lokal şəbəkə və internetə, elektron kitabxanalara və onlayn arxiv resurslarına fasiləsiz çıxış imkanı yaratmalıdır. Eyni zamanda, tələbələrin ixtisaslaşma üzrə dərin biliklərə yiyələnməsi və elmi-tədqiqat işlərinin aparılmasını dəstəkləmə məqsədilə müasir elmi jurnallar, elmi məlumat bazalarına və virtual laboratoriya mühitlərinə, akademik etik mühitə inteqrasiya üçün antiplagiat sistemlərinə çıxışı təmin edilməlidir. Həmçinin, ayrı-ayrı ixtisaslaşmalar üzrə aşağıdakı spesifik infrastruktur resursları və əməkdaşlıq imkanları nəzərə alınmalıdır:

**Turizm və sosial-mədəni servis ixtisaslaşması üzrə:**
- Sosial-mədəni servis müəssisələrinin infrastrukturundan istifadəyə dair anlaşma;
- Azərbaycan Bələdçilər Assosiasiyası ilə əməkdaşlıq anlaşması.

5.2. Ali təhsil müəssisələrinin tədrisə cəlb olunan akademik heyəti, bir qayda olaraq, elmi dərəcəyə malik olur. Elmi dərəcəsi olmayan, lakin müvafiq sahədə ən az 5 il iş təcrübəsi olan mütəxəssislər də tədrisə cəlb oluna bilərlər.

5.3. Magistrlik dissertasiyalarına elmi rəhbərlik, bir qayda olaraq, elmi ada və ya elmi dərəcəyə sahib olan şəxslər (magistr, fəlsəfə doktoru, elmlər doktoru) tərəfindən həyata keçirilir.

## 6. Karyera imkanları və ömürboyu təhsil

6.1. **7008004 – Turizm və otelçilik** proqramı üzrə məzunlar aşağıda qeyd olunan sahələrdə və peşələrdə işləyə bilərlər:

**Turizm və sosial-mədəni servis ixtisaslaşması üzrə:**
- Mədəni və icma əsaslı turizm üzrə mütəxəssis;
- Festival, sərgi və digər sosial-mədəni tədbirlərdə layihə rəhbəri;
- Muzey, qalereya və mədəniyyət obyektlərində ekskursiya təşkilatçısı;
- QHT və dövlət layihələrində sosial-mədəni turizm üzrə məsləhətçi;
- Turizm informasiya mərkəzlərində sosial-mədəni istiqamət üzrə bələdçi.

6.2. Ali təhsil müəssisəsi təhsil proqramının məzunlarının məşğulluğuna dair müntəzəm sorğular keçirməli, eləcə də vakant iş yerlərinə dair məlumatları öz veb-səhifələrində yerləşdirməlidir.

6.3. Ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistrlik dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan şəxslər (tibbi təhsildə həkim-mütəxəssis) fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul oluna bilərlər.

6.4. Təhsil müddətində əldə olunan bilik, bacarıq və yanaşmalar məzunların müstəqil şəkildə ömür boyu təhsil almaları üçün ilkin şərtlərdəndir.

**Əlavə 1**

## Təhsil proqramı və tədris fəaliyyəti üzrə təlim nəticələri

## Turizm və sosial-mədəni servis ixtisaslaşması üzrə:

| Proqramın təlim nəticələri (PTN) |
|---|
| PTN 1. Elmi etika prinsiplərinə və akademik yazı standartlarına riayət etməklə sahə üzrə məlumatların təhlilini həyata keçirməyi, həmçinin, müvafiq layihələrin planlaşdırılması, idarə olunması və nəticələrinin qiymətləndirilməsi prosesini səmərəli şəkildə təşkil etməyi bacaracaq. |
| PTN 2. Sosial-mədəni tədbirləri və festivalları planlaşdırıb həyata keçirə biləcək. |
| PTN 3. Mədəni irs və etnoqrafik turizm məhsullarını formalaşdıra biləcək. |
| PTN 4. Müxtəlif sosial qruplar üçün inklüziv turizm xidmətləri təşkil edə biləcək. |
| PTN 5. Mədəniyyət obyektlərində ekskursiya xidmətlərini həyata keçirə biləcək. |
| PTN 6. İcma əsaslı turizm layihələrində sosial yönümlü xidmət göstərə biləcək. |
| PTN 7. Mədəni müxtəlifliyi nəzərə alaraq uyğun xidmət strategiyası tətbiq edə biləcək. |

| Akademik yazı və etika fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Akademik yazının məqsədi, strukturu və üslub xüsusiyyətlərini anlayaraq elmi esse, dissertasiya, məqalə və digər akademik sənədləri məntiqi və peşəkar şəkildə yaza biləcək. |
| FTN 2 - Fərqli akademik janrlarda (məqalə, dissertasiya, tezis, referat və s.) yazı tələblərinə uyğun kontent hazırlamağı və ideyaları ardıcıl və əsaslandırılmış formada ifadə etməyi bacaracaq. |
| FTN 3 - Mənbələrlə işləmə bacarığına yiyələnərək akademik yazılarda müxtəlif istinad sistemlərindən (APA, MLA, IEEE və s.) düzgün istifadə etməyi və plagiatdan yayınmağı bacaracaq. |
| FTN 4 - Elmi diskussiyalar, seminarlar, simpozium və konfranslarda çıxış etmək üçün akademik danışıq üslubunu mənimsəməklə fikirlərini peşəkar şəkildə təqdim etməyi bacaracaq. |
| FTN 5 - Elmi fəaliyyət zamanı müəlliflik hüquqları, nəşr etikası və akademik dürüstlük prinsiplərini mənimsəyəcək və elmi araşdırmalarda bu prinsiplərə riayət edəcək. |
| FTN 6 - Elmi tədqiqat və yazı prosesində qarşıya çıxan etik dilemmaları və düzgün davranış modellərini analiz edəcək və elmi mühitdə etik qərarlar verməyi bacaracaq. |

| Layihələrin idarə edilməsi fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Layihənin məqsədlərini, mərhələlərini, resurslarını və maraqlı tərəfləri müəyyən etməklə layihənin planlaşdırılması və əsas idarəetmə elementlərini tətbiq etmə bacaracaq. |
| FTN 2. Layihələrdə effektiv komanda qurmaq, rolları bölüşdürmək və layihə menecerinin funksiyalarını yerinə yetirmək üçün liderlik və kommunikasiya bacarıqları nümayiş etdirəcək. |
| FTN 3. Layihənin vaxt cədvəllərini, büdcəsini, təchizat zəncirini və resurslarını idarə edərək layihənin icrasını planlı şəkildə həyata keçirə biləcək. |
| FTN 4. Risklərin proaktiv qiymətləndirilməsi, risk cavab planlarının hazırlanması və dəyişikliklərin idarə olunması üzrə biliklərə əsaslanaraq layihə davamlılığını təmin edə biləcək. |
| FTN 5. "Agile" (çevik) yanaşmaları, o cümlədən Scrum metodologiyasını mənimsəyərək "Məhsul sahibi" və "Scrum Master" rollarını və onların funksiyalarını layihə idarəetməsində tətbiq edə biləcək. |
| FTN 6. Layihə hesabatları, status yeniləmələri və maraqlı tərəflərlə peşəkar ünsiyyət vasitəsilə |

| |
|---|
| layihe fəaliyyətləri üzrə hesabatlılığı və şəffaflığı təmin edəcək. |

| Elmi-pedaqoji təcrübə üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - İxtisasa aid akademik fənlərin proqramlarının hazırlanması, dərs planlarının tərtib edilməsi, mühazirə və praktiki məşğələlərin təşkili, təlim materiallarının seçilməsi və hazırlanması üzrə bacarıqlar qazanacaq. |
| FTN 2 - Tədris prosesinin planlaşdırılması, auditoriya ilə işləmək, təlim strategiyalarının seçilməsi, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmə bacarığına yiyələnəcək. |
| FTN 3 - Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirəcək. |
| FTN 4 – Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifade etməyi öyrənəcək. |
| FTN 5 - Tədris fəaliyyətində açıq və səlis akademik ünsiyyət qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq bacarığına malik olacaq. |
| FTN 6 - Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etməyi, refleksiya aparmağı və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etməyi öyrənəcək. |

| Ali məktəb pedaqogikası və psixologiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1 - Ali təhsil müəssisələrində tədris prosesinin nəzəri və metodoloji əsaslarını izah edə biləcək. |
| FTN 2 - Müasir pedaqoji prinsiplər və təlim metodlarını dərs planlaşdırılmasında tətbiq edə biləcək. |
| FTN 3 - Auditoriya ilə effektiv ünsiyyət və təlim texnologiyalarından istifadə bacarıqları qazanacaq. |
| FTN 4 - Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi üçün müxtəlif qiymətləndirmə üsullarını tətbiq edəcək. |
| FTN 5 - Tədris prosesində innovativ və interaktiv metodlardan istifadə etməklə motivasiyanı artıracaq. |
| FTN 6 - Elmi-pedaqoji fəaliyyətində peşəkar standartlara riayət edərək dərs və tədqiqat işlərini təşkil edəcək. |

| Turizm sənayesinin tarixi və müasir problemləri fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Turizmin tarixi inkişaf mərhələlərini izah edə biləcək. |
| FTN 2. Müxtəlif tarixi dövrlərdə (qədim, orta əsr və yeni dövr) turizmin sosial və iqtisadi rolunu təhlil edəcək. |
| FTN 3. Müasir turizm sənayesinin əsas problemlərini müəyyənləşdirəcək. |
| FTN 4. Qlobal turizm bazarında dəyişiklikləri və tendensiyaları qiymətləndirəcək. |
| FTN 5. Müasir problemlərə alternativ və davamlı həll yolları təklif edəcək. |
| FTN 6. Tarixi və müasir yanaşmaları müqayisə edərək analitik nəticə çıxaracaq. |

| Dayanıqlı və inklüziv turizm fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Dayanıqlı turizmin nəzəri əsaslarını izah edəcək. |
| FTN 2. Turizmin sosial, iqtisadi və ekoloji təsirlərini təhlil edəcək. |
| FTN 3. İnklüziv turizmin prinsiplərini və əhəmiyyətini izah edəcək. |

| |
|---|
| FTN 4. Əlilliyi olan şəxslər üçün əlçatan turizm xidmətləri planlaşdıracaq. |
| FTN 5. Yerli icmaların rifahını gücləndirən turizm layihələrini qiymətləndirəcək. |
| FTN 6. Dayanıqlı və inklüziv turizm konsepsiyası əsasında layihə hazırlayacaq. |

| **Mədəni irs və etnoqrafik turizm fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Mədəni irsin növlərini və onların dəyərini izah edəcək. |
| FTN 2. Etnoqrafik turizmin xüsusiyyətlərini təhlil edəcək. |
| FTN 3. Mədəni irs abidələrinin qorunmasında turizmin rolunu qiymətləndirəcək. |
| FTN 4. Mədəni irs əsasında turizm marşrutları hazırlayacaq. |
| FTN 5. Milli-mənəvi dəyərləri turizm məhsullarında tətbiq edəcək. |
| FTN 6. Beynəlxalq mədəni irs konvensiyalarını izah edəcək. |

| **Sosial-mədəni fəaliyyətin təşkili və menecmenti fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Sosial-mədəni fəaliyyətlərin məqsəd və vəzifələrini izah edəcək. |
| FTN 2. Fəaliyyətlərin planlaşdırılma metodlarını tətbiq edəcək. |
| FTN 3. Sosial-mədəni layihələrin idarəsini həyata keçirəcək. |
| FTN 4. Menecment alətlərini praktiki işlərdə tətbiq edəcək. |
| FTN 5. Fəaliyyətlərin effektivliyini qiymətləndirəcək. |
| FTN 6. Komanda işini təşkil edəcək. |

| **Turizm marketinqi və brendinq fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Turizm marketinqinin nəzəri əsaslarını izah edəcək. |
| FTN 2. Turizm bazarını seqmentləşdirir və hədəf qrupları müəyyənləşdirəcək. |
| FTN 3. Marketinq alətlərini praktiki nümunələrdə tətbiq edəcək. |
| FTN 4. Brendinq strategiyalarını hazırlayacaq. |
| FTN 5. Milli və regional turizm brendlərini təhlil edəcək. |
| FTN 6. Marketinq kampaniyalarının nəticələrini qiymətləndirəcək. |

| **Rəqəmsal texnologiyalar və turizm innovasiyaları fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Rəqəmsal texnologiyaların turizmdə rolunu izah edəcək. |
| FTN 2. Onlayn marketinq və satış kanallarını təhlil edəcək. |
| FTN 3. VR və AR texnologiyalarını turizmdə tətbiq edəcək. |
| FTN 4. Rəqəmsal innovasiya layihəsi hazırlayacaq. |
| FTN 5. Rəqəmsal texnologiyaların üstünlüklərini qiymətləndirəcək. |
| FTN 6. Turizm biznesində rəqəmsal strategiyalar quracaq. |

| **Turizmdə liderlik və strateji idarəetmə fənni üzrə təlim nəticələri (FTN)** |
|---|
| FTN 1. Liderlik anlayışını və modellərini izah edəcək. |
| FTN 2. Strateji idarəetmə prosesini şərh edəcək. |
| FTN 3. Qərar qəbuletmə bacarıqlarını nümayiş etdirəcək. |
| FTN 4. Müəssisənin strateji planını hazırlayacaq. |
| FTN 5. Liderlik üslublarını praktiki tətbiq edəcək. |
| FTN 6. Strateji idarəetmənin effektivliyini qiymətləndirəcək. |

| İcma əsaslı turizm və sosial xidmətlər fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. İcma əsaslı turizmin prinsiplərini izah edəcək. |
| FTN 2. Sosial xidmətlərin turizmdə rolunu təhlil edəcək. |
| FTN 3. İcma resurslarını turizm layihələrinə inteqrasiya edəcək. |
| FTN 4. İcma iştirakçılığına əsaslanan turizm planı hazırlayacaq. |
| FTN 5. Sosial sahibkarlıq nümunələrini qiymətləndirəcək. |
| FTN 6. İcma əsaslı turizmdə davamlılıq meyarlarını tətbiq edəcək. |

| Sosial-mədəni servisin sosial və iqtisadi əsasları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Sosial-mədəni xidmət anlayışını və mahiyyətini izah edəcək. |
| FTN 2. Sosial-mədəni xidmətlərin iqtisadi əsaslarını təhlil edəcək. |
| FTN 3. Sosial tələbatların turizm və servisin inkişafına təsirini qiymətləndirəcək. |
| FTN 4. Sosial-mədəni xidmətlərin təsnifatını aparacaq. |
| FTN 5. Sosial və iqtisadi meyarları nəzərə alaraq xidmət nümunələri yaradacaq. |
| FTN 6. Dövlət və özəl sektorun sosial-mədəni servisdə rolunu izah edəcək. |

| Sosial-mədəni servisin müasir tendensiyaları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Sosial-mədəni servisin müasir inkişaf meyillərini izah edəcək. |
| FTN 2. Rəqəmsal texnologiyaların servisdə tətbiqini təhlil edəcək. |
| FTN 3. Müasir xidmət növlərini müqayisə edəcək. |
| FTN 4. Müştəri tələblərinə uyğun yeni xidmət təklifləri hazırlayacaq. |
| FTN 5. Qlobal bazarda sosial-mədəni xidmət standartlarını öyrənəcək. |
| FTN 6. Sosial-mədəni servisdə innovasiya modellərini tətbiq edəcək. |

| Sosial-mədəni tədbirlərin təşkili və koordinasiya fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Sosial-mədəni tədbir növlərini təsnif edəcək. |
| FTN 2. Tədbir planı və ssenarisini hazırlayacaq. |
| FTN 3. Tədbirin təşkilati strukturunu quracaq. |
| FTN 4. Koordinasiya və komanda işini idarə edəcək. |
| FTN 5. Tədbirin maliyyələşmə mənbələrini müəyyən edəcək. |
| FTN 6. Tədbirin nəticələrini və sosial təsirini qiymətləndirəcək. |

| Sosial-mədəni servis sahəsində insan resurslarının idarə olunması fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. İnsan resurslarının idarə olunması prinsiplərini izah edəcək. |
| FTN 2. Sosial-mədəni servisdə kadr seçimini həyata keçirəcək. |
| FTN 3. İşçilərin motivasiya metodlarını tətbiq edəcək. |
| FTN 4. İnsan resurslarının idarəetmə modellərini təhlil edəcək. |
| FTN 5. Komanda və liderlik bacarıqlarını nümayiş etdirəcək. |
| FTN 6. Əmək münasibətlərində etik prinsipləri tətbiq edəcək. |

| Ekskursiya işinin təşkili və bələdçilik fəaliyyəti fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1. Ekskursiya anlayışını və növlərini izah edəcək. |
| FTN 2. Ekskursiya marşrutu hazırlayacaq. |
| FTN 3. Ekskursiya metodikasını tətbiq edəcək. |
| FTN 4. Bələdçilik bacarıqlarını nümayiş etdirəcək. |
| FTN 5. Ekskursiyalarda kommunikasiya bacarıqlarını inkişaf etdirəcək. |
| FTN 6. Ekskursiya işinin keyfiyyətini qiymətləndirəcək. |

| Turizmdə tədqiqat metodları fənni üzrə təlim nəticələri (FTN) |
|---|
| FTN 1.Turizmdə tədqiqat metodlarını izah edəcək. |
| FTN 2. Elmi hipotezlər formalaşdıracaq. |
| FTN 3. Statistik məlumatları təhlil edəcək. |
| FTN 4. Sorğu və müşahidə metodlarını tətbiq edəcək. |
| FTN 5. Elmi hesabat hazırlayacaq. |
| FTN 6. Tədqiqat nəticələrini qiymətləndirəcək. |

**Əlavə 2**

**Təhsil proqramı və tədris fəaliyyətlərinin təlim nəticələrinin matrisi**

| Tədris fəaliyyətinin (fənnin) adı | Proqramın təlim nəticələri | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | PTN 1 | PTN 2 | PTN 3 | PTN 4 | PTN 5 | PTN 6 | PTN 7 |
| Akademik yazı və etika | X | | | | | | |
| Layihələrin idarə olunması | X | | | | | | |
| Ali məktəb pedaqogikası və psixologiyası | | | | | | | |
| Turizm sənayesinin tarixi və müasir problemləri | | | | | | | |
| Dayanıqlı və inklüziv turizm | | | | X | | | |
| Mədəni irs və etnoqrafik turizm | | | X | | | | X |
| Sosial-mədəni fəaliyyətin təşkili və menecmenti | | X | | | | | |
| Turizm marketinqi və brendinq | | X | | | | | X |
| Rəqəmsal texnologiyalar və turizm innovasiyaları | | | | | | | |
| Turizmdə liderlik və strateji idarəetmə | | | | | | | X |
| İcma əsaslı turizm və sosial xidmətlər | | | | X | | X | |
| Sosial-mədəni servisin sosial və iqtisadi əsasları | | X | | | | | |
| Sosial-mədəni servisin müasir tendensiyaları | | | | X | | | |
| Sosial-mədəni tədbirlərin təşkili və koordinasiya | | X | | X | | | |
| Sosial-mədəni servis sahəsində insan resurslarının idarə olunması | | | | | | | |
| Ekskursiya işinin təşkili və bələdçilik fəaliyyəti | | | X | | X | | |
| Turizmdə tədqiqat metodları | X | | | | | | |
| Elmi pedaqoji təcrübə | | | | | | | |

**Razılaşdırıldı:**

**ADMİU-nun Tədris işləri üzrə prorektoru:** ____________ **Nigar Rüstəmova**

**ADMİU-nun Tədris şöbəsinin müdiri:** ____________ **Namiq Qafarov**

**ADMİU-nun Muzeyşünaslıq və turizm kafedrasının müdiri:** ____________ **Yeganə Eyvazova**

**ADMİU-nun Kulturologiya fakültəsinin dekanı:** ____________ **Səyavuş Məhişov**